

## ŞAHMƏMMƏD DAĞLAROĞLU

### ELƏMİSƏN

Bir qara daş idi dərdim sinəmdə,
Sən onu tərpədib, dağ eləmisən.
Ümidlər əkməklə boş ürəyimi
Mələklər üz tutan bağ eləmisən.

Harda gül açılsa, ora yol düşür,
İki əl bir olur, neçə qol düşür.
Hər xoş baxışına min "Sağ ol!" düşür,
Ölünü dirildib sağ eləmisən.

Məndən saray uman, budur ev, tanı,
Namərdə nifrət et, mərdi sev, tanı.
Bu qanadı zərif, körpə sevdanı,
Başımın üstündə tağ eləmisən.

Yasımı saxlayır köynəkdə sazım,
Yetmir sevənlərə ahım, avazım.
Çoxdan ha deyirdim, bir şeir yazım,
Oxuyanlar desin: Ağ eləmisən!

### SONUNCU YAĞIŞ

Yudu yollardakı izini sənin,
Dedi demədiyin sözünü sənin.
Oxşatdı ağlayan gözünü sənin,
Sonuncu yağış.

Duruca arxları lilə döndərdi,
Elə axan suyu belə döndərdi.
Damcıları yığıb selə döndərdi,
Sonuncu yağış.

Soyutdu aranın havasını da,
İslatdı quşların yuvasını da.
Kəsdi sərçələrin davasını da
Sonuncu yağış.

Elə bil payızın ilk toyun etdi,
Belə yağmaq ilə min oyun etdi.
Bizi çətir altda qol-boyun etdi,
Sonuncu yağış.

### DAHA

Sevməklə 40 nədi, 50-ni, ötdüm,
Narahat eləmir yaş məni daha.
Başımı baş tutub, yolumu getdim,
Əminəm, azdırmaz baş məni daha.

Mən bura cənnətdən köçüb gəlmişəm,
Cəhənnəm əzabın çəkib gəlmişəm.
Neçə daşqalaqdan keçib gəlmişəm,
Qorxutmur atılan daş məni daha.

Gələrəm, səninlə gülməkdən ötrü,
Ölərəm, dərdindən ölməkdən ötrü.
Yaxında, yanında bilməkdən ötrü,
Zənn et üzüyündə qaş məni daha.

Xəyallar, yuxular çin olsa belə,
Uymaram, arzular cin olsa belə.
Gözəllər yüz deyil, min olsa belə,
Görməzsiz gözləri çaş məni daha,

Ürək durmayınca qan durmayacaq,
Könül bu sevdadan yan durmayacaq.
Eşqinə bükülsəm, yandırmayacaq,
Məzarıma düşən yaş məni daha.

## SƏN O QIZI QINAMA

*Aybəniz Əlyarın "Yetimdi" şeirinə*

Bənizi gülür Aya,
Sevdası bənzər çaya.
Vurulub bir qocaya,
Sən o qızı qınama.

Dönüb dərdsiz uşağa,
Baxmır qaraya, ağa.
Sevgiyə yox qadağa,
Sən o qızı qınama.

Yuxudadır, yuxuda,
Tər bənovşə qoxuda.
Bilmir utanc, qorxu da,
Sən o qızı qınama.

Bu yuxudan oyansa,
Gedib, gedib dayansa...
Eşqi ona həyansa,
Sən o qızı qınama.

Sevəni, qucası yox,
Gözündə ucası yox.
Allahdan qocası yox -
Sən o qızı qınama.

## SONRA SINA

Dünya bu gün sevənindi,
Bəla gələr sonrasına.
Sevsin məni sevən indi,
Dərd bilmərəm sonrasın a!

Sevda, həsrət adlıq halda,
Naz çəkməyə yoxdu hal da.
Sən o ruhda, mən bu halda,
Sına məni, sonra sına.

Torpağım var, səpim nə dən,
Baş sağ olsun, saçda nə dən?
Dağlaroğlu, yarın nədən,
Qəlbi səndən sonra sına?

## BU GÖZƏL

Gözəl, göz əldən gözəl,
Bu gözəl oda gözəl.
Gözəl gözəldən gözəl,
Bu gözəl, o da gözəl.

Tab gətir sən, yan, a ram,
Tab gətirsən, yanaram.
Tab gətir sən, yan, aram,
Bu gözəl oda, gözəl.

Baxsan, a Dağlaroğlu,
Bax sana, Dağlaroğlu.
Baxsana, Dağlaroğlu,
Bu göz-əl, o da göz-əl?

## GƏLMƏ SƏN YAR

Atam, anam vardı elə,
Sən könlümə gəlməsən, yar.
Dərd üstümə vardı elə,
Dərd gəlirsə, gəlmə sən, yar.

Fürsət ikən, de, danış, gül,
Adın Çiçək, yoxsa ki, Gül?
Nə bilərsən kim qoydu gül,
Qəbrim üstə gəlməsən, yar.

Yayda idi oxum, ağa,
Qan püskürdü oxum ağa.
Ürəyimi oxumağa,
Təbibə de: gəlmə, sən yar.

Dağlaroğlu, tap o dadı,
Meylin gülə, həm odadı.
Yazdıqların boş odadı,
Həyata sən gəlməsən, yar?

## SƏNƏ NƏ OLUBDU?

Bir ay əvvəl şən idin -
O əvvəlki sən idin.
Dünən deyingən idin,
Qız, sənə nə olubdu?!

Yaşamaq vədəsidir,
Kim yardan edəsidir?
Qəm gəlib-gedəsidir,
Döz, sənə nə olubdu?

Dönüb çiçək ətrinə,
Hopdun şeir sətrinə.
Yaman dəyir xətrinə,
Söz, sənə nə olubdu?

Kim güzgünü əyibdi,
Acı kəlmə deyibdi?
Nəzər kəsib, dəyibdi,
Göz, sənə nə olubdu?

Bu hal yaddı yaşına,
Çək əlini qaşına.
Gəl, çevirim başına,
Duz, sənə nə olubdu?

## SƏNİN SƏSİN GƏLƏNDƏ

Ulduzlardan enirəm,
Öz dünyama dönürəm.
Sevdalıtək dinirəm,
Sənin səsin gələndə.

Atıb boşu, hədəri,
Unuduram kədəri.
Yox qədərin qədəri,
Sənin səsin gələndə.

Son qoyulur müşkülə,
Qəm yanıb dönür külə.
Sözüm bürünür gülə,
Sənin səsin gələndə.

Mizrabı donar sazın,
Quşlar kəsər avazın.
Gülləri solmaz yazın,
Sənin səsin gələndə.

Damarımda coşar qan,
Nura boyanar cahan.
Ölümə vermərəm can,
Sənin səsin gələndə.

Yer - balaca bir kürə,
Yollar gedir xeyirə.
Nitqim dönür şeirə,
Sənin səsin gələndə.

Gül heykəlin gözümdə,
Həyat gülür üzümdə.
Mən olmuram özümdə,
Sənin səsin gələndə.

## VAXTINDA

Gəlib açam qapınızı,
Allahla bir - tək vaxtında.
Qurudam göz yaşlarını,
O həzin, kövrək vaxtında.

Əlindən tutub, dolanam,
Dolansam, qulun olanam.
Bəlkə yol azmış yalanam,
Sənin bu gerçək vaxtında?

Gözümü dikəm belinə,
Əlimi çəkəm telinə.
Oxşadam səni gəlinə,
Ömrünün çiçək vaxtında.

Sal boynuma əllərini,
Belə yaşa illərini.
Ürəyimdə güllərini,
Çiçəyini ək, vaxtında.

Diləyim yetə Allaha,
Bəsdir! - deyəm qəmə, aha.
Başqa sözüm yoxdu daha,
Gəl, dərdimi çək vaxtında.

## QİSMƏTİM

Adı vardır, özü yox
Ürək açan izi yox.
Məni görən gözü yox,
Yox, yox, kordu qismətim.

Tab gətirdim əzaba
Oldum ağsaqqal, baba.
Gəzdirdi oba-oba
Məni yordu qismətim.

Nə çox məndən yan duran,
Mənə dərdi andıran.
Öz içimi yandıran
Közdü, qordu qismətim.

Hey istəyir aldada,
Məni üzdə, daldada.
Düz gördüyüm yolda da
Cələ, tordu qismətim.

Zərdən evim tikilsə,
Borclarım lap kiçilsə,
Bacamdan bal tökülsə,
Elə şordu qismətim.

## GÖZƏL

Qəfil sönsə ocağımız,
Gəlləm sizə oda, gözəl.
Aldığım od əvəzinə,
Can edərəm fəda, gözəl.

Xoşbəxt olaq yolda, izdə,
Dünya ola öhdəmizdə.
İkimizçün bir dənizdə,
Cənnət ola ada, gözəl.

Kim uydurdu məhəbbəti?
Onda ancaq ölum qəti.
Belədir ki, cəmiyyəti,
Tərk eləmir qada, gözəl.

Ürəyində varsa adım,
Sən mələksən, yox iradım.
Ölmək üçün doğulmadım,
Ömrü verdim bada, gözəl.

Gah xeyirik, gah da şərik,
Sevincimə sən ol şərik.
Bir də nə vaxt görüşərik?
Bel bağlama yada, gözəl.

Sevən gündən günüm qara,
Tanrım, mənə bir gün ara.
Nə deyim mən indi yara?
Sən də gözəl, o da gözəl.

## BAYATI - ŞEİR

Çəkməyəcəm adını,
Daşıyacam odunu.
Baldan şirin bilirəm,
Həsrətinin dadını.

Sevda nə, bəsdi nədi,
Yad yolu kəsdi nədi?
Bu qızın etdikləri,
Canımın qəsdinədir.

Yox kimsədə bu göz, qaş,
Gül olur əlində daş.
Bilmirəm, bu həyatdır,
Məhəbbətdir, ya savaş?

Sabaha yoxdur güman,
Can desə, verərəm can.
Razıyam bir ox atsın,
Sinəmdən keçməsin yan.

Gecəm-gündüzüm əzab,
Hələ ki, edirəm tab.
Yazdıqlarım bu qədər,
Yazmadıqlarım - kitab.

## MƏNİ

Sevən kəsim, bu nə qərəz,
Tuş elədin aha məni.
Dözdüm, söylədim: - Əlqərəz!
Dərd də saymır daha məni.

Təzimdəyəm Haqqa, saya,
Sərvətimdi abır, həya.
Ağlayıb gəldim dünyaya,
Tay tutdular şaha məni.

Müntəzirəm, önündəyəm,
Bişib, yanası kündəyəm.
Təsəvvür et, bir gündəyəm,
Qəbul etməz kaha məni.

Fənd öyrətdi, çəkdi yana,
Çox çalışdı, uyum ona.
Nə deyim mən kor Şeytana,
Sevdirdi Allaha məni.